# Yurdumuza yaz gəlir!

## Bu, bir Qəbələ guşəsi

Şiş dağlarda məskən salıb
«Yatmış gözəl» dağ zirvəsi.
Bir silinməz yadda qalıb,
«Yeddi gözəl» şəlaləsi,—
Bu, bir Qəbələ guşəsi...
***
Yaddaşlarda daim qalır,
Heyran edir hər bir kəsi.
Dağ-dərəyə haray salır
Doğma Mıçıq şəlaləsi,—
Bu, bir Qəbələ guşəsi...

Qulaqlara sırğa taxır
Şonqar bulağın şən səsi.
Ürəklərə qorxu salır
Türyancayın gur nərəsi,—
Bu, bir Qəbələ guşəsi...
***
Tarixlərdən keçib gəlir
Canalan döyüş cəngisi.
O döyüşdən xəbər verir
Şeyx Bədrəddin Türbəsi,—
Bu, bir Qəbələ guşəsi...

Dağıtdı şəhər qalasın
Topal Teymurun həmləsi.
Xarabalıq qoy ağlatsın
Təsib çəkən hər bir kəsi,—
Bu, bir Qəbələ guşəsi...
***
Yenileşir, gözəlləşir
Qəbələnin hər bölgəsi.
Görənləri heyran edir
«Lunapark»ın əyləncəsi,—
Bu, bir Qəbələ guşəsi...

**Səməd HƏSƏNOĞLU.**

## Bahar təravəti

Yenə mücrüsünü açdı təbiət,
Bahar təravətin saçdı təbiət.
Lalələr düyməli, bənövşə qəmli,
Açıbdır çöllərdə novruz gülləri.
İlaxır çərşənbələr keçir bir-bir,
Elimizə novruz bayramı gəlir.
Evlərdə bəzənibdir səmənilər,
Paxlava, şəkərbura bişirər qız-gəlinlər.
Tonqallar qalayıb uşaqlar yenə,
Rəqs edirlər ətrafında əl-ələ.
Çılpaq meşələr də yenə göyərir,
Bulaqlar şırhaşır nəğmə söyləyir.
Günəş nur çiləyip çəmənə-çölə.
Quşlar nəğmə deyir budaqda yenə.
İsinib sınmışdır çayların buzu,
Ətrafa yayılıb çay gurultusu.
Dağlar, uca dağlar, vüqarlı dağlar,
Çalmalı zirvəsini çən, duman alar.
Bir anda tutulur göylərin üzü,
Çəmənlərə yağır bahar müjdəsi.
Toqquşur buludlar, ildırım çaxır,
Təbiət nə gözəl rəngə boyanır.
Var olsun torpağım, var olsun elim,
Elimizə bahar gəlir, gülür vətənim!

**Rəciyyə MEYFULLAQIZI,**
**Qəbələ şəhəri.**

## Baharın gəlişinə

Qışdan çıxdıq, yazı sevək,
Novruz gəlir, deyək-gülək,
Qodu tutub nəğmə deyək,
İlk baharın gəlişinə.

Duman yeri öpər keçər,
Bənövşələr qönçələnər,
Qara bulud yağış səpər,
İlk baharın gəlişinə.

Bulaqlar zümzüməsiylə,
Çaylar da gur səsiylə,
Bülbül sevinər nəğməsilə,
İlk baharın gəlişinə.

**Məleykə ŞİRİNZADƏ,**
**Qəbələ şəhəri, məktəbli.**

## Torpaq çərşənbəsi

İlaxır çərşənbə Novruz çərşənbələrinin şahı və sultanıdır. Bu çərşənbədə xoş sözlər danışmaq, xeyir-dua dolu söhbət etmək savab sayılır. İlaxır çərşənbənin axşam şənlikləri daha gur olur. Evlərdə üzərlik yandırılır, tonqallar qalanır, məşəllər yandırılır, bacalardan torbalar sallanır, qurşaq atılır və s. İlaxır çərşənbədə süfrəyə yeddi adda bar-bəhər, mer-meyvə, şirniyyat düzülməlidir. Odur ki, bu çərşənbəyə el arasında «Yeddi ləvin», «Yeddi löyün» bayramı da deyilir. İlin axır çərşənbəsi axşamı ürəyində niyyət tutub qaş qaralandan sonra xəlvətcə qonum-qonşuya gedərlər. Qapı dalında durub ayağın altına açar atıb içəriyə qulaq asarlar, içəridən eşidilən iki kəlmə niyyətin yerinə yetib-yetməyəcəyinə işarə verir. İki kəlmə xoş sözə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyət baş tutacaq yox, pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə dilə gəlsə, onda istəyə yetmək çətin işdir. Odur ki, ulular tapşırmışlar ki, axır çərşənbə gəlib yetişəndə evdə könül açan söhbətlər edilsin.

—Axır çərşənbə gecəsinin səhəri sübh obaşdan durub axar su üstünə getmək, suya salam verib üç dəfə üstündən tullanmaq lazımdır. Deyirlər ki, belədə ilin xoş gələr, ağrı-acı görməzsən. Axır çərşənbə gecəsinin səhəri evin damına buğda atırlar ki, bərəkət artıq olsun.

—Axır çərşənbədə un cuvalının ağzını açıq qoyurlar ki, bərəkət paylananda bağlı qalmasın.

—Axır çərşənbədə axar suyun qabağını kəsmək olmaz, Kəssən, sənə zərər toxunar, işlərin dolaşığa düşər.

—İlaxır çərşənbə axşamı balta ilə meyvə ağaclarının kötüyünə bir-iki dəfə yüngülcə vurub, deyərlər. «Nə yatmısan, oyan, hərəkət payını götür» —Deyərlər, həmin il ağacın barı bol olar.

—Axır çərşənbədə dünyadan köçənlərin ruhu geri dönər, qoyub getdikləri əzizlərinin əhvalı ilə maraqlanırlar. Odur ki, ilaxır çərşənbədə qəbir üstünə getmək, dünyasını dəyişmişlərin ruhuna «Yasin» oxutdurmaq savab sayılar.

İlaxır çərşənbəsində səfərə çıxmaq olmaz, Hər kəs ev-eşiyində, oğul-uşağının yanında olmalı, bayramı birlikdə qeyd etməlidir.

**Novruz bayramınız mübarək!**

**A. CƏLİLOV.**

# Peşəsinin vurğunu

Peşənin kiçiyi, böyüyü, yaxşısı, pisi yoxdur. Peşəni yüksəldən insanın peşəsinə vurğunluğudur. Bununla belə insan peşəsinə ürəkdən bağlıdırsa peşə sahəsində tanınır, yüksəlir, məşhurlaşır. Haqqında söhbət açacağımız həmyerlimiz Şahmurad Məmmədov da sevgi lə



bağlandığı sadə operator peşəsi ilə tanınmışdır.

Şahmurad Məmmədov Nic qəsəbəsində anadan olmuş, sonra ailəsi ilə birlikdə xalq arasında işıq şəhəri adlanan Mingəçevirə köçmüşdür. Orta təhsilini Mingəçevirdə başa vuran Ş. Məmmədov Bakıda ali məktəbi tikinti mühəndisi ixtisası ilə bitirmişdir. Tikintidə mühəndis kimi işə başlasa da kütləvi informasiya vasitəsi işçisi olmaq arzusu onu bir an da tərk etməmişdir. İlk öncə poliqrafiya sexində qəzet yığan kimi işə başlamışdır. İlk yazıları ötən əsrin 90-cı illərində Mingəçevirdə çıxan "İnam" qəzetində işıq üzü görməyə başlamışdır. Elə həmin illərdə Azərbaycan Jurnalistlər Birliyinə üzv olmuşdur. Tanınmış jurnalist Samir Quliyev onu Azərbaycan Televiziyasına işləməyə dəvət etmişdir. Şahmurad Məmmədov düz 20 il bundan öncə Azərbaycan Televiziyasında operator kimi işə başlamış, bu sənətin bütün incəliklərinə yiyələnmişdir. Onun daxil olduğu müxbir postu Mingəçevir şəhəri də daxil olmaqla Yevlax, Ucar, Göyçay, Zərdab və Ağdaş rayonlarından Azərbaycan Televiziyasına, eyni zamanda Aztv Mədəniyyət, Aztv İdman telekanallarına operativ məlumatlar, videogörüntülər hazırlayıb göndərir.

Ş. Məmmədov televiziya operatoru olsa da dövri mətbuatla əlaqəni kəsmir. Vaxtaşırı olaraq qəzet səhifələrində müxtəlif məzmunlu yazılarla çıxış edir. 1990-cı il yanvarın 21-də hələ gənc olan Şahmurad Məmmədov qəzetin redaktoru Fərman Nəbiyevlə birlikdə "Mingəçevir işıqları" qəzetinin 20 yanvar hadisələrinə həsr olunmuş xüsusi nömrəsinin buraxılmasına nail olmuşdu.

Peşəsinin vurğunu olan Ş. Məmmədovun əməyi Azərbaycan Televiziyası və Mingəçevir Şəhər İcra Hakimiyyəti rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. O, dəfələrlə səmərəli fəaliyyətinə görə qiymətli hədiyyələrlə, diplom və fəxri fərmanlarla mükafatlandırılıb.

Ş. Məmmədov eyni zamanda qayğıkeş ailə başçısıdır.

**Çələbi DÖNMƏZ.**

# Qaranlıq mağaradakı dustaq

Bir adama ölüm cəzası vermişdilər. Onun gözlərini bağlayaraq qaranlıq bir mağaraya saldılar. Mağaranın eni də, uzunu da eyni-əlli metr idi. Məhkuma bildirdilər ki, mağaradan çıxmaq üçün tək bir yol var, o yolu tapıb çıxa bilsə cəzadan azad olacaq. Mağaranın girişini bir qaya parçası ilə yaxşıca bağladıqan sonra məhkuma gözlərini açmaq və qaranlıqda sərbəst gəzmək icazəsi verilmişdi. Ona 30 gün yemək və su veriləcək, otuz gündən sonra heç nə verilməyəcəkdi. Məhkum bu 30 gün ərzində mağaradakı çıxış yolunu tapa bilsə sərbəst qala bilərdi. Çörək və suyu mağaranın tavanında olan kiçik dəlikdən aşağı tullayırdılar. Tavanın yüksəkliyi təxminən 7 metr idi. Dustaq yuxarıdan gələn azacıq, işığı gördü, lakin həmin işıq mağaranı işıqlandırmırdı. O, mağaranın içərisində gəzinərkən iri daş parçalarına toxundu. Bu daşların bəziləri çox böyükdü. Əgər bu daş parçalarından bir təpə yarada bilsə, tavandakı dəliyə yaxınlaşıb, onun içindən keçə biləcək qədər genişləndirib çölə çıxa biləcəyini düşündü.

Məhkum qaya parçalarını toplayaraq 15 gün ərzində 3 metr hündürlüyündə bir təpə yaratdı. Öndəki 15 gündə də təpəni əlavə 2 metr yüksəldə bilsə əlinin tavana çatacağını fikirləşdi. Mağaranın içərisindəki daşların hamısını işlətdiyi üçün daha çox torpaq qazıb daş çıxarmaq lazım gəlirdi. Torpağı qazmaq üçün istifadə etdiyi tək alət əlləriydi. Aradan bir ay keçdikdən sonra 5 metrəyə yaxın bir təpə düzəltmişdir ki, buradan da tullanmaqla əllərini tavandakı dəliyə çatdıra bilirdi. Artıq ona çörək və su tullamırdılar. Üzülüb əldən düşmüşdü. Bir gün tavandakı dəliyə əlini çatdırmaq ümidilə təpənin üstündən tullanarkən yerə, qaya parçalarının üzərinə yıxıldı. Məhkum ayağa qalxa bilməyəcək qədər zəifləmişdi və iki gün ərzində öldü.

Məhkumun cansız bədənini almağa gəldilər. Mağaranın ağzını bağlayan qaya parçalarını kənara çəkincə mağaranın içi işıqlandı və mağaranın divarında diametri 1 metr olan dəlik göründü. Bu dağın digər tərəfinə gedən tunelin girişi idi. Bu məhkumun azadlığa qovuşması üçün tapmalı olduğu yol idi. Bu yol tavandakı dəliyin düz altında, mağaranın cənub divarında idi. Bu yolla cəmi 20 metr sürünsəydi azadlığına qovuşacaqdı, lakin məhkum işığa o qədər aludə olmuşdu ki, azadlığını qaranlıqda axtarmaq heç ağlına belə gəlməmişdi. Azadlıq 30 günəmin bir zilətlə düzəltdiyi təpənin lap yanında, lakin qaranlıqda idi.

**Toplayanı**
**Vüsal SƏMƏDOV.**